**Əminə Cəfərova,**
*Diyarşünaslıq biblioqrafik resurslarının*
*yaradılması şöbəsinin müdiri,*
*BDU-nun dissertantı*

# ÖLKƏŞÜNASLIQ ÜZRƏ BİBLİOQRAFİK RESURSLARIN YARADILMASI İSTİQAMƏTİNDƏ MİLLİ KİTABXANADA HƏYATA KEÇİRİLƏN İŞLƏR

***Xülasə:*** *Məqalədə Milli Kitabxanada ölkəşünaslıq biblioqrafiyasının tarixinə qısa nəzər salınmış, "Azərbaycanşünaslıq" kartotekasının yaradılması, onun ölkəşünaslıq və diyarşünaslıq biblioqrafiyasının işindəki əhəmiyyətindən bəhs edilmişdir. Hazırda Diyarşünaslıq biblioqrafik resurslarının yaradılması şöbəsinin gördüyü işlər haqqında məlumat verilmiş, son illərin hesabatları diaqramlarla göstərilmişdir. Biblioqrafik resursların yaradılmasının zəruriliyindən, məlumatların istifadəçilərə tam və operativ şəkildə, həm də tam mətni ilə çatdırılmasından danışılmışdır.*

***Abstract:*** *In the article, the history of the country studies bibliography in the National Library was briefly reviewed, the creation of the "Azerbaijan Studies" card file, its importance in the work of the country studies and country studies bibliography was discussed. At present, information is given about the work done by the department of creating bibliographic resources of Diyarşunaslıg, and the reports of the last years are shown with diagrams. They talked about the necessity of creating bibliographic resources, providing information to users in a complete and prompt manner, as well as with the full text.*

***Резюме:*** *В статье представлен краткий обзор истории библиографии по страноведению в Национальной Библиотеке, освещается история создания картотеки «Азербайджановедение», рассказывается о ее значении и ценности для страноведческой и краеведческой библиографии. Представлена информация о деятельности отдела создания краеведческих библигографических ресурсов; отчеты последних лет приведены в диаграммах. Рассказывается о важности и необходимости создания библиографических ресурсов, оперативном предоставлении пользователю всеобъемлющей и полнотекстовой информации.*

***Açar sözlər:*** *"Azərbaycanşünaslıq" kartotekası, analitik biblioqrafik yazılar, biblioqrafik vəsaitlər, ölkəşünaslıq və diyarşünaslıq biblioqrafiyası, FTP protokolu, cari biblioqrafik informasiya göstəricisi.*

***Key words:*** *"Azerbaijan studies" file, analytical bibliographic records, bibliographic resources, country studies and local studies bibliography, FTP protocol, current bibliographic information index.*

***Ключевые слова:*** *Картотека «Азербайджановедение», аналитико-библиографические записи, библиографические пособия, библиография по страноведению и краеведению, протокол FTP, указатель текущей библиографической информации.*

Ölkənin tarixinin, mədəniyyətinin, iqtisadiyyatının, elminin öyrənilməsində resursların, mənbələrin rolu böyük və əvəzsizdir. Qlobal informasiya məkanında mənbələrin əlçatanlığının təmin olunmasında kitabxanaların xüsusi və danılmaz xidmətləri var. Kitabxanalarda həyata keçirilən bir sıra mühüm işlər var ki, bunlardan biri də biblioqrafiyalaşdırma, biblioqrafik yazıların yaradılması prosesidir. Məsələn, istifadəçilərə Azərbaycanın tarixi, iqtisadiyyatı, mədəniyyəti, elmi, texnikası və s. haqqında informasiyanı qısa bir zaman ərzində çatdırmaq, onları daha çox bu resurslarla məlumatlandırmaq məqsədilə kitabxanalar müəyyən analitik biblioqrafik resurslar yaradırlar və belə mükəmməl resurs yaradan kitabxanalardan ən başlıcası Azərbaycan Milli Kitabxanasıdır. Milli Kitabxananın əsas üstünlüklərindən biri odur ki, fonduna ölkədə nəşr olunan bütün çap məhsullarından mütləq nüsxə daxil olur və eyni zamanda ölkədə çap olunan bütün mətbuat nümunələri, həmçinin elmi, metodiki, publisistik jurnallar da fonda daxil edilir.

Bildiyiniz kimi, bu mətbu nəşrlərdə də Azərbaycanın ictimai-siyasi, iqtisadi, elmi, təhsili və mədəni həyatı ilə bağlı bir sıra maraqlı, faydalı və zəngin informasiyalar öz əksini tapır. Göstərilən məlumatları istifadəçilərə çatdırmaq istiqamətində Milli Kitabxananın fəaliyyəti xüsusi qeyd olunmalıdır. Milli Kitabxanaya daxil olan ölkə ərazisində çap olunmuş elmi nəşrləri, jurnal və gündəlik çapdan çıxan qəzetlərin tərkibini açan, oradakı məlumatları saf-çürük edərək daha faydalı və elmi xarakter daşıyan informasiyaları istifadəçilərin diqqətinə çatdıran proseslərdən biri də analitik biblioqrafik resursların yaradılmasıdır ki, bu işləri Diyarşünaslıq biblioqrafik resurslarının yaradılması şöbəsi həyata keçirir. Ölkəşünaslıq, azərbaycanşünaslıq üzrə biblioqrafik resursların tələbatçılara çatdırılması, təkcə yerli əhalini informasiyalaşdırma deyil, eyni zamanda Azərbaycan həqiqətlərini, tarixi faktları, mədəniyyət və incəsənət, ədəbiyyata, təhsilə dair informasiyaları dünya ictimaiyyətinə doğru və qərəzsiz çatdırmaq məqsədi daşıyır.

Ölkəşünaslıq biblioqrafiyası ilə peşəkar məşğul olan Diyarşünaslıq və milli biblioqrafiya şöbəsinin 1974-cü ildə yaranmasına baxmayaraq, kitabxanada diyarşünaslıq biblioqrafiyasının tarixinə nəzər saldıqda görürük ki, 1963-cü ildən bölmə kimi fəaliyyəti müddətində, istərsə də 1928-1937-ci illərdə fəaliy-

yət göstərmiş xüsusi məlumat-biblioqrafiya bürosu ölkəşünaslıq (diyarşünaslıq) biblioqrafiyası sahəsindəki fəaliyyətinə öz müsbət təsirini göstərmişdir. Ondan daha əvvəl isə kitabişləmə və kataloqlaşdırma sahəsində çalışan əməkdaşlar diyarşünaslıq işi ilə məşğul olmuşlar.

1963-cü ildə yaranan bölmə ilk gündən fəaliyyətinə "Azərbaycanşünaslıq" kartotekasının yaradılması ilə başlamışdır. Kartoteka Azərbaycan və rus dillərində tərtib edilmişdir. Diyarı elmi əsaslarla öyrənmək üçün diyarşünaslıq üzrə bitkin informasiya sisteminin formalaşmasının vacibdir və cəmiyyətin informasiyalaşdırılması diyarşünaslıq biblioqrafiyasının əsas vəzifəsinin həyata keçirilməsini tələb edir. Bu məqsədlə bütün sahələri əks etdirən kartotekanın təkmilləşdirilməsi həmişə diqqət mərkəzində olmuşdur. 1964-cü ilədək olan materialları kartotekada əks etdirmək məqsədilə 1920-ci ildən sonrakı illərin dövri mətbuatı təsvir olunmuşdır. "Maarif və mədəniyyət", "Molla Nəsrəddin", "Təbliğatçı", "Maarif işçisi", "Şərq qadını" jurnallarından və "Ədəbiyyat qəzeti", "Kommunist" və "Azərbaycan müəllimi", "Yeni fikir" qəzetlərindən materiallar seçilib kartotekaya daxil edilmişdir. Kataloq Azərbaycanın tarixi, ictimai-siyasi həyatı, kənd təsərrüfatı, ədəbiyyatı, mədəniyyəti və incəsənəti haqqında informasiyanı əks etdirən 1 400 000 kartoçkanı əhatə edir.

1974-cü ildə Diyarşünaslıq və milli biblioqrafiya şöbəsi kimi müstəqil fəaliyyətə başlamış Diyarşünaslıq biblioqrafik resursların yaradılması şöbəsi günümüzədək təkmil bir yol keçmişdir.

Bu gün Azərbaycan Milli Kitabxanasının fəaliyyəti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli, 30 nömrəli qərarı ilə təsdiq edilmiş Əsasnamə əsasında tənzimlənir. Milli Kitabxananın vəzifələrini müəyyənləşdirən III bölmədə Milli Kitabxananın həyata keçirdiyi vəzifələrin mühüm istiqamətləri təsbit edilmişdir. Burada diyarşünaslıq və digər elm sahələri üzrə dövlət biblioqrafiya vəsaitlərinin hazırlanması da yer almışdır.

Qarşısında duran vəzifələri yerinə yetirmək, onları yeni istiqamətdə təşkil etmək məqsədilə şöbənin strukturu 3 bölmədə qruplaşdırılmışdır:

1. Azərbaycanşünaslıq biblioqrafik resurslarının yaradılması;
2. Analitik biblioqrafik resursların yaradılması;
3. Tammətnli analitik resursların veb-portalda yerləşdirilməsi.

Biblioqrafik göstəricilərin hazırlanması işi Azərbaycanşünaslıq biblioqrafik resurslarının yaradılması bölməsinin üzərinə düşür. Bölmə mütəmadi olaraq "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından fundamental elmi-köməkçi biblioqrafik göstəricilər çapa hazırlayır. Biblioqrafiyalardan istifadənin asanlığını təmin etmək məqsədilə sonunda köməkçi göstəricilər verilir. Vəsaitlər çapa gedən kimi dərhal kitabxananın saytında əlçatanlığı təmin edilir (https://www.millikitabxana.az/publications/publications-of-the-library).

Çapa təqdim olunan vəsaitlər cari ilin planına uyğun həyata keçirilir.  Bəzən plandankənar vəsaitlərin tərtibatına da zərurət yaranır. Nümunə üçün göstərə bilərik ki, cari ildə 8 fundamental elmi-köməkçi biblioqrafik göstəricinin çapı nəzərdə tutulub.

Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili münasibətilə çapa hazırlanan "Heydər Əliyev-100 (kitablar)" adlı biblioqrafik vəsait, ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermiş görkəmli alimimiz haqqında zəngin informasiyanı özündə birləşdirən "Akademik Zərifə Əlieva -100" adı biblioqrafiya, yarandığı vaxtdan etibarən şərəfli bir yol keçmiş, cəmiyyətin intellektual potensialının artırılmasında baza kimi mühüm rol oynamış Azərbaycan Milli Kitabxanasının 100 illiyi münasibətilə çapı nəzərdə tutulmuş "M.F.Axundzadə adına Milli Kitabxana-100", Azərbaycanın görkəmli şərqşünası, tarixçi Ziya Bünyadova həsr olunmuş "Ziya Bünyadov-100", Azərbaycan xalqının tarixinə milli kadrların hazırlanmasına böyük təsiri olan bir xeyriyyəçi mesenat və milyonçu kimi daxil olmuş H.Z.Tağıyevə həsr olunan "Hacı Zeynalabdin Tağıyev-200" biblioqrafik göstəricisi, məşhur Azərbaycan yazıçısı "Salam Qədirzadə", ictimai həyatda və yaradıcılıqda mübarizələrlə dolu bir ömür yaşamış şairəyə həsr olunmuş "Nigar Rəfibəyli" vəsaiti və  musiqisi ilə Azərbaycan musiqi sənətini dünyanın bir çox ölkəsində təmsil edərək rəğbət qazanan bəstəkara həsr olnmuş "Arif Məlikov" adlı biblioqrafik vəsaitlərin oxucular üçün töhfə olacağına əminik.

Diaqram №1. Son 5 ildə çap olunmuş biblioqrafik vəsaitlərin inkişaf dinamikası:



Bütün dünyada hökm sürən COVİD 19 infeksiyasının pandemiya vəziyyətinə keçməsi səbəbindən bölmə 2020 və 2021-ci illərdə sərt karantin rejimində işləsə də, diaqrama nəzər saldıqda görürük ki, bəzi iş növlərini evdən icra edərək biblioqrafiyaların tərtibatı işini ləngitməmişdir.

Azərbaycan milli mətbuatının analitik elektron məlumat bazasını yaratmaq işinin bütün məsuliyyəti isə Analitik biblioqrafik resursların yaradılması bölməsinin üzərinə düşür. Gündəlik mətbuatdan ayrı-ayrı mövzuların peşəkarcasına seçilib elektron kataloqa yazılması işinə 2008-ci ilin dekabr ayından başlanılmışdır. 2014-cü ildən etibarən biblioqrafik yazıların elektron resursu da hazırlanır. Azərbaycan və rus dillərində çapdan çıxan qəzetlərdən seçilmiş məqalələrin biblioqrafik yazısı tərtib edilir. Hazırda 50 addan artıq qəzetdən məqalələr seçilir.

Diaqram №2. Son 3 ilin biblioqrafik yazıları:




Diaqrama nəzər saldıqda aydın olur ki, biblioqrafik yazıların həcmi ildən-ilə artır. Əgər 2020-ci ildə yazıların sayı 28 329 idisə, 2022-ci ildə bu rəqəm 33 223 olmuşdur.

Jurnal və elmi əsər məqalələrinin analitik biblioqrafik yazısının yaradılması da əsas prinsiplərimizdəndir.

Milli Kitabxananın fonduna daxil edilən elmi əsər, jurnal, konfrans materiallarının məqalələrinin MARC yazısı yaradılır və elektron kataloqa daxil edilir.

Diaqram №3. Qəzet və jurnal məqalələrinin biblioqrafik yazısı:




Əgər 2020-ci ildə 25 239 qəzet məqaləsi, 3090 jurnal məqaləsi təsvir olunmuşdusa, 2022-ci ildə qəzet məqalələrinin sayı 24 986, jurnal məqalələrinin sayı isə 8237-ə çatmışdır.

Məqalələrin elektron resursunun yaradılması, FTP protokoluna daxil edilməsi, oxucular üçün əlçatanlığının təmin edilməsi prosesləri tammətnli analitik resursların veb-portalda yerləşdirilməsi bölməsi tərəfindən həyata keçirilir.

Şöbənin əsas fəaliyyətlərindən biri də ilk sayının çapı 1975-ci ilə təsadüf edən “Mədəniyyət, incəsənət, bədii ədəbiyyat və ədəbiyyatşünaslıq haqqında yeni ədəbiyyat” adlı cari biblioqrafik informasiya göstəricisinin hazırlanmasıdır. Vəsaitin çapı 1992-ci ildən dayandırılsa da, 2006-cı ildən nəşri bərpa olunmuşdur. Əsasən mütəxəssislər üçün nəzərdə tutulan vəsait aylıq xarakter daşıyır, Azərbaycan və rus dillərində olan materiallar vəsaitə daxil edilir. Müvafiq sahələr üzrə qruplaşdırılmış vəsait kitabxana-biblioqrafiya təsnifatına uyğun olaraq yarımbölmələrə ayrılır. Göstəricidə mütəmadi olaraq görkəmli şəxsiyyətlərin yubileyləri, əlamətdar hadisələrə və s. müvafiq yeni yarımbölmələr açılır.

Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli sərəncamı ilə cari il Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə “Heydər Əliyev İli” elan olunmuşdur. “Heydər Əliyev İli” adlı bölmə açılmış, müvafiq materiallar mütəmadi olaraq hər ay buraya daxil edilir. Naxçıvanda birinci kitab sərgisi, Azərbaycan Xalq Cümhuriyyəti-105, Şuşa şəhəri 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı”, Şuşada “Xarıbülbül” Beynəlxalq Musiqi Festivalı, Azərbaycan Milli

Kitabxanası-100, Milli Muğam Müsabiqəsi, “I Bakı Müasir Musiqi Günləri” festivalı, Azərbaycan kinosu-125, Anar-85, Elçin-80, 2023 год-Год Гейдара Алиева, Шуша-«Культурная столица тюркского мира», Международный музыкальный фестиваль «Харыбюльбюль», Историческое и культурное наследие Западного Азербайджана və digər bu kimi mühüm əhəmiyyətli hadisələrə həsr olunmuş məqalələr müvafiq bölmələrdə toplanmışdır. Göstəricinin kitabxananın saytında yerləşdirilmiş elektron variantı vəsaitin əlçatanlığını təmin edir. Vəsaitə daxil edilmiş bütün materiallar tammətnlidir və istifadəyə açıqdır (https://www.millikitabxana.az/publications/publications-literature).

Son illər respublikada baş verən hadisələr, Tovuz döyüşləri, 44 günlük Qarabağ müharibəsi, ordumuzun zəfəri, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin beynəlxalq jurnalistlərə ictimaiyyət qarşısındakı verdiyi çoxsaylı müsahibələr, hazırda ölkədə baş verən proseslər, işğaldan azad olunmuş ərazilərdəki mövcud vəziyyət və s. bu kimi zəruri məlumatları istifadəçilərə düzgün, qərəzsiz və operativ şəkildə çatdırmaq istiqamətində bu gün də Milli Kitabxananın əməkdaşları ciddi cəhdlə çalışırlar. Gün ərzində kitabxanaya daxil olan dövri mətbuat nümunələrində çap olunmuş məqalələr operativ şəkildə kataloqlaşdırılır və onların elektron nüsxələri istifadəçilərin diqqətinə təqdim edilir. Biblioqrafik yazıların əlçatanlığını təmin etmək məqsədilə istifadəçilərə məqalələrin tam mətni də təqdim edilir. Bu istiqamətdə kitabxananın işləri davam edir.

## ƏDƏBİYYAT


**1.** Azərbaycan Milli Kitabxanasının 100 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. URL: https://e-qanun.az/framework/54487

**2.** Azərbaycan Milli Kitabxanasının Əsasnaməsi.

**3.** Azərbaycan Milli Kitabxanası – 90: məqalələr məcmuəsi /baş red. və buraxıl. məs. K.Tahirov; red. A.Abdullayeva.- Bakı, 2013.- 152 s.

**4.** Diyarşünaslıq biblioqrafik resursların yaradılması şöbəsinin hesabatları.

**5.** İsmayılov, N.İ. Kitabxanada ölkəşünaslıq (diyarşünaslıq) üzrə biblioqrafik fəaliyyət (nəzəri-tarixi, təşkilati-metodiki məsələləri) /N.İsmayılov, Q.Hacıyeva.- Bakı: Mütərcim, 2004.- 112 s.

**6.** Tahirov, K. Dünya milli kitabxanaları. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası /K.Tahirov; elmi red. A.Xələfov.- Bakı, 2013.- 211 s.

**7.** Tahirov, K. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının tarixi:

1923-2008-ci illər /K.Tahirov; elmi red. A.Xələfov; ixtisas red. A.Əliyeva-Kəngərli; red. N.İsmayılov, K.Aslan.-Bakı, 2008.- 218s.

**8.** 70 il xalqın xidmətində: məcmuə /M.F.Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanası.- Bakı, 1993.- 156 s.

**9.** Zeynalova, H. Diyarşünaslıq və milli biblioqrafiya: Məqsəd Vətəni öyrənmək, onu təbliğ etmək və sevməkdir /Həyat Zeynalova //70 il xalqın xidmətində: məcmuə /M.F.Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanası.- Bakı, 1993.- S.51-54.

**10.** https://www.millikitabxana.az/publications/publications-of-the-library

**11.** https://www.millikitabxana.az/publications/publications-literature